# POLİETNİK ŞƏRAİTDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA KİTAXANA-İNFORMASİYA XİDMƏTİNİN XÜSUSİYYƏTLƏRİ
## (Şəki-Zaqatala iqtisadi regionunun nümunəsi əsasında)

**Nadir İsmayılov**
*Sənəd menecmenti kafedrasının müdiri, dosent*
*Nadir_ismayil@gmail.com*

**Daşqın Məhəmmədli**
*Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının müəllimi*
*dashqin.muhammedli@gmail.com*

**Hacı Qasımlı**
*Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının doktorantı*
*Hacı_qasimli@list.ru*

***Xülasə.*** *Şəki-Zaqatala iqtisadi regionun əhalisi öz polietnik xüsusiyyətlərinə görə ölkənin digər regionlarından fərqlənir. Burada azərbaycanlılarla yanaşı, ləzgilər, türklər, kürdlər, avarlar, tatarlar, ukraynalılar, gürcülər, ruslar, ingiloylar, buduqlar, niclər, udinlər və başqa xalqların, etnik millətlərin nümayəndələri mehriban qonşuluq şəraitində yaşayır. Ümumiyyətlə, Azərbaycanda millətlərarası münasibətlərin demokratik prinsiplər əsasında tənzimlənməsi, müasir dövrdə Azərbaycan Respublikasının millətlərarası münasibət siyasətinin məqsəd və vəzifələrini, prinsipləri və əsas istiqamətləri, hüquqi bazası, müstəqil Azərbaycanın milli siyasəti – azsaylı xalqların hüquq və mədəni irsinin qorunmasında atılan addımlar, Azərbaycanın polietnik təkamülünə baxış və onun tolerantlıq ənənələri mövcuddur. Təsadüfi deyildir ki, XX əsrin əvvəllərində tanınmış etnoqraf alimlər Azərbaycanı bütün millətlərin mehriban qonşuluq şəraitində yaşadığı "etnoqrafik muzey" olaraq dəyərləndirirlər.*
*Hazırda Azərbaycan Respublikasının ərazisində səksəndən artıq azsaylı xalqlar yaşamaqdadır. Onlar qafqazdilli irandilli türkdilli qruplara aid olub ölkənin əhalisinin etno-konfessional tərkibinə daxildir. Onların sırasında udiləri, ingiloyları, xınalıqları, qrızları, buduqları, tatları, talışları, rusları, ləzgiləri, yəhudiləri və digər xalqları göstərmək olar. Məqalədə yuxarıda qeyd edilən məsələlər üzrə kompleks şəkildə araşırmalar aparılmış, yerli və xarici müəlliflərin əsərlərinə istinad olunaraq elmi kontekstdə tədqiqat aparılmışdır.*
***Açar sözlər.*** *Kitabxana, informasiya xidməti, Şəki-Zaqatala iqtisadi regionu, polietnik şərait, etnik təkib*

Müasir dünyada multikulturalizm, mədəniyyətlərin qovuşduğu həmrəylik, sülh, tolerantlıq beşiyi kimi tanınan Azərbaycan Respublikasında kitabxana işinin inkişafı, informasiya xidmətinin təşkili prosesi də, məhz əsas mədəniyyət sahələrindən biri kimi daim multikutural dəyərlərin maksimum gözlənilməsi və qiymətləndirilməsi müddəaları ilə səciyyəvidir.

Azərbaycan Respublikasında elmin, təhsilin, mədəniyyətin, incəsənətin inkişafına dövlət səviyyəsində xüsusi önəm verilir. Təsadüfi deyil ki, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasının 16-cı maddəsinin ikinci hissəsində Azərbaycan dövlətinin mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərməsi, ölkənin təbiətini, xalqın tarixini, maddi və mənəvi irsini qoruması göstərilmişdir. Konstitusiyasının 25-ci maddəsində qeyd edilir ki, "Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır".

Hazırda Azərbaycan Respublikasının ərazisində 80-dən çox azsaylı xalq yaşayır. Bu azsaylı xalqlar qafqazdilli, irandilli, türkdilli qruplara aid olub, ölkə əhalisinin etno-konfessional tərkibinə daxildir. Onların sırasında ***udiləri, ingiloyları, xınalıqları, qırızları, buduqları, tatları, talışları, rusları, ləzgiləri, yəhudiləri*** və digərlərini göstərmək olar. Bu azsaylı xalqların bir hissəsi Azərbaycanın köklü əhalisi olub, başqa bir hissəsi isə tarixin müxtəlif mərhələlərində baş verən sosial-siyasi proseslərin nəticəsi olaraq ölkə torpaqlarında məskunlaşmışlar. [3; 4; 5; 6; 7].

Mövzumuzla birbaşa əlqəli olduğu üçün bu aspektdə bir neçə faktları qeyd etmək məqsəduyğun olardı.

Çoxmədəniyyətli, çoxmillətli vətənimiz tarixi gedişatın bütün mərhələlərində tolerantlıq, multikulturalizm dəyərlərinə önəm verilən məkan olub. Müxtəlif konfessiyaların, mədəniyyətlərin qovuşduğu Odlar Yurdu azərbaycançılıq ruhunun hökm sürdüyü məkandır. Azərbaycançılıq isə, müxtəlif mədəniyyətliliyə qucaq açan bir siyasət, ideologiya, həyat tərzidir. Etnik cəhətdən mədəni müxtəlifliyə sahib olan respublikamız bütün xalqlara doğma ana qucağıdır.

Azərbaycan milli kitabxanaşünaslıq məktəbinin digər nümayəndələrindən prof. B.allahverdiyev, dos. R.Kazımov, dos.S.Razayev, dos.N.İsmayılov, dos. Ə.Nəcəfov, dos. A.Əliyev, fəlsəfə doktoru İ.Bayramova və b. da regional kitabxanaşünaslığın müxtəlif istiqamətlərdən tədqiqi ilə məşğul olmuş, müvafiq aspektdə tutarlı dəlillər, əhəmiyətli elmi faktlarla əsaslandırılan nəzəri ümumiləşdirmələr aparmışlar. Həmin elmi-nəzəri ümumiləşdirmələrin demək olar ki, əksəriyyətində regionalarda kitabxana-informasiya fəaliyyətinin, sənəd-informasiya resurslarının tədqiqi, təhlili və ümumiləşdirilməsi prosesində regionun sosial-iqtisadi və mədəni baxımdan səciyyəvi xüsusiyətləri, xüsusilə, polietnik regionlarda (məs.Şəki-Zaqatala iqtisadi regionu) oxucuların dil, din, etnik-mədəni xüsusiyyətlər: xarakterik mədəniyyət, folklor, mental ənənələr və s. əlamətlərin nəzərə alınması göstərilmişdir.

Azərbaycan Respublikasında dövlət siyasətinin əsas prioritetləri sırasında kitabxana işinin inkişafı, kitabxana-biblioqrafiya və informasiya xidmətinin müt

rəqqi metod və üsullar əsasında qurulması məsələləri müüm yer tutur. Bu aspektdə ölkədə əsaslı hüquqi baza formalaşdırılmış, sahənin kompleks inkişafı naminə böyük ümumdövlət tədbirləri həyata keçirilmişdir.

Azərbaycan ərazisi qədim türklərin vətənidir. Burada, eyni zamanda, tarixən başqa xalqlar da yaşayıb. Onlar ayrı-ayrı dövrlərdə müxtəlif səbəblər üzündən Azərbaycana gəlib, yaxud köçürülüb və sonradan geri qayıtmaq istəməyib.

Ümumiyyətlə, Azərbaycanda millətlərarası münasibətlərin demokratik prinsiplər əsasında tənzimlənməsi, müasir dövrdə Azərbaycan Respublikasının millətlərarası münasibətlər siyasətinin məqsəd və vəzifələri, prinsipləri və əsas istiqamətləri, hüquqi bazası, müstəqil Azərbaycanın milli siyasəti – azsaylı xalqların hüquq və mədəni irsinin qorunmasında atılan addımlar, Azərbaycanın polietnik təkamülünə baxış və onun tolerantlıq ənənələri mövcuddur. Təsadüfi deyildir ki, XX əsrin əvvəllərində görkəmli etnoqraf alim Vəliyev (Baharlı) "Azərbaycanı etnoqrafik muzey" olaraq göstərirdi.

Azsaylı xalqlardan – alban soylarından olan *udilərə* (hazırda əsasən Azərbaycan Respublikasının Şəki-Zaqtala iqtisadi regionuna daxil olan inzibati rayonlarda-xüsusilə – Qəbələ rayonunda – yaşayırlar) diqqət yetirərək göstərmək lazımdır ki, müasir udilərin birbaşa əcdadları sayılan utilər haqqında e.ə. V əsrdə yaşamış qədim yunan müəllifi Herodot özünün "Tarix" əsərində məlumat verib. E.ə. I əsrdə yaşamış Strabon da "Coğrafiya" əsərində Qafqaz Albaniyasında yaşamış 26 yerli alban soyunun arasında udilərin adını göstərib. Udilər, əsasən, Qafqaz Albaniyasının Uti və Arsax vilayətlərində yaşamışlar.

Azərbaycan respublikasının Şəki-Zaqatala iqtisadi reionunda yaşayan azsaylı xalqlardan olan İnqgiloylar (*Alban soylu) da diqqəti çəkir ki,* onlar Qafqaz Albaniyasının Kambisena vilayətində yaşamış, erkən orta əsrlərdə xristianlıq Qafqaz Albaniyasında yayılarkən, udilər kimi xristianlığı qəbul etmişlər.

Əsasən hazırki Şəki-Zaqatala iqtisadi regionunda yaşayan azsaylı xalqlardan qafqadilli *Nic tayfaları* da erkən orta əsrlərdə xristianlığı qəbul etmişdir.

İslamaqədərki dövrdə Azərbaycanda konfessional durum özünün rəngarəngliyi ilə seçilmiş, ölkənin cənub torpaqlarında əhali əsasən Zərdüştlüyə və Xristianlığın nestorian məzhəbinə sitayiş etsələr də, Qafqaz Albaniyasında əhalinin cüzi hissəsi politeist dinlərə, böyük hissəsi xristianlığın diofizit və monofizit məzhəblərini qəbul etmişdi.

Ərəb xilafəti dövründə islamın yayılması Azərbaycanın bütün bölgələrində demək olar ki, eyni zaman ölçüsündə baş vermişdi. Zərdüştlüyün və bütpərəstliyin geniş yayıldığı ərazidə, Azərbaycanın cənub torpaqlarında, daha sonra Mil, Muğan, Kaspi sahillərində, Kür və Araz çayları boyunu əhatə edən ərazilərdə islam dini sürətlə yayılmışdı. Lakin Arsax, Uti, Kambisena vilayətlərində yaşayan əhali xristian kitab əhli olduğu üçün ərəblər onların dini etiqadına dözümlə yanaşmışlar.

Bu baxımdan, müasir Azərbaycan Respublikasının Şəki-Zaqatala İqtisadi regionunda mürəkkəb polietnik vəziyyətdə kitabxana-informasiya xidmətinin səciyyəvi xüsusiyyətlərinin təhlili zəminində məhz regionda yaşayan az-

saylı xalqların keçmiş Kambisena və Uti vilayətinin ərazisində məskunlaşması, bu vilayətlərin digərlərindən fərqli olaraq, xristian dini ehkamlarına daha uzun müddət etiqad etməsi və buna görə də, bir sıra dini və digər cəhətlərdən müxtəlif aspektli dünyagörüçünə sahib olmaları və s.əlamətlərin nəzərə alınması, həmin əlamətlərin region kitabxanalarında toplanan, mühafizə olunan sənədlərdə öz əksini tapması, belə sənədlərlə işin təşkilinin, oxuculara bu istiqamətlərdə müəyyən meyarlar üzrə fərqli xidmət texnologiyasının seçilməsi kimi əsaslı məsələlər gözlənilməlidir.

Eyni zamanda, bəhs edilən tarixi şəraitdə Ərəblər tərəfindən Qafqaz Albaniyasını Bizansdan uzaqlaşdırmaq məqsədilə VIII əsrin əvvəllərindən etibarən (b.e-nın 704-cü ili) Alban kilsəsini iyerarxik baxımdan monofizit erməni kilsəsinə tabe etdirilmişdir. Belə ki, Ərəb xilafəti xristianlara qarşı münasibətdə Sasanilərin yürütdüyü siyasəti davam etdirir və nəticədə 704-cü il hadisələrindən sonra Alban kilsəsinin erməni kilsəsindən asılı vəziyyətə düşməsi əhalinin öz dilindən, tarixi yaddaşından uzaqlaşmasına səbəb olur və Qafqaz Albaniyasının Arsax, Uti bölgəsinin əhalisi konfessional-mədəni assimilyasiyaya məruz qalmışlar.

Mədəniyyət tarixinin, mühüm tərkib hissəsi olan kitabxana tarixində məhz Azərbaycanın qədim dövr kitabxanaçılığının əsasları tədqiq edilərkən, bilavasitə mövcud dövrün göstərilən tarixi, ictimai-siyasi proseslərini işıqlandıran faktların, məlumatların, əsaslandırılmış müddəaların əks etdirildiyi sənədlərin toplandığı, mühafizə olunduğu kitabxanaların özlərinin tarixi gedişatda hansı yeri tutduğunun tədqiqi problem önə çəkilir, bu zəmində də hələ qədim dövrlərdən etibarən kitabxana xidmətində ideoloji məsələlərin millətlərin, etnosların, azsaylı xalqların maraqlarına uyğunlaşdırılma prosesinə verdiyi töhfələrin ümumiləşdirilməsi əsaslı aktuallıq kəsb edən problem kimi qarşıya qoyulur.

Milli tarixşünaslığımızad qeyd edlilir ki, Kambisena əyalətinin əhalisi **ingiloylar** isə İberiya ilə həmsərhəd olduğu üçün gürcü pravoslav kilsəsinə üz tutur və gürcüləşirlər. Tarixin faciəvi dönüşü ölkə əhalisinin ayrı-ayrı bölgələrinin etno-konfessional inkişafını müxtəlif səmtlərə istiqamətləndirmiş və eyni soya, kökə, tarixə malik əhali konfessional amil əsasında bir-birinə yadlaşmış və *"din ayrı qardaş"* aforizmi söz lüğətimizə daxil olmuşdur. Bu mühüm tarixi fakta əsasən müasir şəraitdə Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionununda yaşayan ingiloy əhaliyə kitabxana-informasiya xidməti prosesində qeyd edilən tarixi-səciyyəvi xüsusiyyətlər nəzərə alınmalıdır.

Azərbaycan xalqının tarixən yaşadığı konfessional təkamülü ona polikonfessional mədəniyyət çalarları gətirib. Ölkənin ərazisində zərdüştlük, xristian, islam abidələri qorunub saxlanır. Azərbaycan Respublikasının şimal-qərb, cənub-qərb bölgələrində qorunub saxlanan alban, xristian abidələri xalqımızın tarixi yaddaşı üçün bir sübutdur ki, Azərbaycan torpaqları yalnız Azərbaycan tarixinə məxsusdur.

Xalqın ulu əcdadlarının yaşadığı tarixi yol multikultural ənənələrin yaranması üçün zəmin olub, Azərbaycan xalqında tarixən konfessiyalara olan tolerantlıq mədəniyyətini formalaşdırıb.



Ölkəmizdəki etno-milli müxtəliflik indiyə qədər də özünü qoruyub saxlayır. Respublikamızda bütün xalqlar, millətlər səmimi dostluq, qardaşlıq, ümumi fəlsəfi-ideoloji konsepsiya-azərbaycançılıq ideologiyası naminə sülh, əminamanlıq və firavanlıq şəraitində yaşayır. Şəki-Zaqatala iqtisadi regionu bu aspektdə xüsusilə səciyyələnir.

Azərbaycan Respublikasının Şəki-Zaqatala İqtisadi regionu da öz etnik-milli tərkibi etibarilə digər iqtisadi regionlar içərisində fərqlənir. Burada bir çox türkdilli və qafqazdilli xalqlar, etnik qruplar (türklər, avarlar, ingiloylar, ləzgilər, dağıstanlılar, gürcülər, niclər, udinlər və s.) yaşayır. Onlar birgə multikultural mədəni mühitdə vahid azərbaycançılıq ideologiyasının inkişafına xidmət edir, azərbaycançılıq fəlsəfi konsepsiyanın əsaslarını möhkəmləndirmək üçün həmrəylik nümayiş etdirirlər.

Məlumdur ki, regionun sosial-iqtisadi inkişafı, mədəni infrasrukturunun səviyyəsi əhaliyə kitabxana-informasiya xidmətinin səviyyəsindən, kitabxana işinin təşkilinin mövcud durumundan, sənəd-informasiya resurslarının optimal paylanmasından, informasiya tələbatçılarının kitabxana fondlarına, sənəd-informasiya resurslarına əlçatarlığının təmin edilməsi səviyyəsindən də asılıdır.

Şəki-Zaqatala İqtisadi regionunda kitabxana-informasiya infrastrukturunun yerləşməsi ənənələri öz spesifikliyi ilə fərqlənir. Bu spesifiklik region əhalisinin polietnik tərkibi, oxucuların dil xüsusiyyətləri, milli-tarixi dünyagörüşü problemləri, milli-etnik mədəni əlamətlər və s. baxımından səciyyələnir.

***Şəki Regional Mədəniyyət İdarəsinin tabeliyində olan MKS-lər haqqında ümumi məlumat***

| Şəhər (rayon) | Ümumi fondu | Azərbaycan dilində | | | | | Ali ixtisas təhsilli | Orta ixtisas təhsilli |
|---|---|---|---|---|---|---|---|---|
| | | Latın qrafikalı | Kiril qrafikalı | Rus dilində | Ingilis dilində | Başqa dillərdə | | |
| Balakən | 165453 | 83845 | 63975 | 16722 | 90 | 821 | 4 | 21 |
| Zaqatala | 344987 | 111849 | 184954 | 47711 | 473 | | 6 | 31 |
| Qax | 283176 | 83841 | 146776 | 36331 | 547 | 15160 | 11 | 38 |
| Şəki | 546093 | 136593 | 341932 | 65780 | 1788 | | 12 | 44 |
| Oğuz | 172867 | 56328 | 95655 | 20222 | 396 | 266 | 7 | 8 |

Görkəmli kitabxanaşünas alim, Azərbaycan milli kitabxanaşünaslıq elmi məktəbinin banisi, prof. A.A.Xələfov regionalarda kitabxana-informasiya işinin əsalsarının tədqiqata cəlb edilməsi prosesində aşağıdakı əsas əlamətləri prioritet təhlil prinsipləri kimi əldə rəhbər tutmağı qeyd edir:

– regionun yerləşdiyi iqtisadi-coğrafi mövqenin xalqın ümumi tarixi-mədəni həyatında tutduğu ənənəvi yeri və rolu müəyyənləşdirmək;

– region əhalisinin milli-etnik tərkibini, milli-mədəni xüsusiyyətlərini, başlıca mental xarakterik elementlərini müəyyənləşdirmək;

– regionun mədəni infrastrukturunda mütaliə prosesinin cari, retrospektiv və perspektiv durumunu təhlil edərək oratay çıxarmaq.

Beləliklə, Azərbaycan respublikasının iqtisadi regionları özlərinin potensialına, təbii sərvətlərinin miqyasına, məşğulluq səviyyəsinə görə bir-birindən fərqlənir. Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunu iqtisadi-coğrafi və tarixi baxımdan fərqləndirən amillər əsasən aşağıdakılardır:

– regionun iqtisadi-coğrafi mövqeyi;
– regionun təbii şəraiti, təbii və intellektual ehtiyatları;
– əhalinin etnik tərkibi və məskunlaşması səviyyəsi;
– regionun sahə-ərazi və ərazi quruluşu;
– regionun tarixi inkişaf xüsusiyyətləri

Ümumiyyətlə, Azərbaycan Respublikasında kitabxana-informasiya infrastrukturunun regionlarda yerləşdirilməsini inzibati rayonların oxşar və fərqli xüsusiyyətlərini, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafını, gələcək perspektivlərini, eləcə də, əhalinin demoqrafik, təhsil, mədəni səviyyəsini və s. nəzərə almaqla yaradılması məqsədə uygundur. Bu aspektdə Azərbaycan Respublikasının 10 iqtisadi regionundan biri olan, təbii-coğrafi xüsusiyyətləri və əhalisinin milli-etnik tərkibi baxımından fərqlənən Şəki-Zaqatala iqtisadi regionunda kitabxana-informasiya resurslarının formalaşmasına təsir edən amillərin bölgənin coğrafi mövqeyindən, etnik tərkibindən asılılığı mövcuddur və özünəməxsus xarakterik cəhətləri vardır.

Aparılan tədqiqatlara əsasən demək olar ki, kitabxana-informasiya resurslarının yerləşdirilməsində əhalinin etnik tərkibinin, multikultural dəyərlərin nəzərə alınması mühüm məsələlərdən biridir. Mədəniyyətlərin qovuşduğu, həmrəylik, sülh, tolerantlıq beşiyi kimi tanınan müasir Azərbaycan Respublikasında kitabxana işinin inkişafı, informasiya xidmətinin təşkili prosesində multikultural dəyərlərin maksimum gözlənilməsi və qiymətləndirilməsi kitabxanaçı-biblioqrafların, xüsusilə də regionda çalışan əməkdaşların diqqət mərkəzində olmuşdur.

Azərbaycan Respublikasının Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan Balakən və Zaqatala inzibati rayonlarında əhalinin etnik tərkibinin digər rayonlara nisbətən daha multikultural xarakter daşıması ilə səciyyələnir. Bu rayonlarda kitabxana-informasiya infrastrukturunun yerləşdirilməsi, informasiya resurslarının bölüşdürülməsi, kitabxana xidmətinin effektivlik elementləri müəyyən multikultural meyarlar əsasında təhlil edilir. Həmin meyarlar içərisində dil amili xüsusi yer tutur. Odur ki, adıçəkilən inzibati rayonlarda kitabxana-informasiya infrastrukturunda bir sıra texniki, iqtisadi, kadr problemləri mövcud olmaqla yanaşı. sahənin tarazlı inkişafının effektiv modelləşdirilməsi üçün fərqli, eləcə də, kitabxanaşünaslıq nəzəriyyəsi üçün mühüm aktuallıq kəsb edəcək yeni "polietnik lokal multikultural mühitdə fərqləndirilmiş kitabxana-informasiya xidməti" konsepsiyası işlənib hazırlana bilər.



**QAX RAYON ƏHALİSİNİN ETNİK TƏRKİBİ**

*Cədvəl-1*

| Etnik qrup | 1999-cu il | | 2022-ci il | |
|---|---|---|---|---|
| | Sayı | % | Sayı | % |
| Cəmi | 65644 | 100.00 | 73229 | 100.00 |
| Azərbaycanlılar | 40355 | 76.51 | 63946 | 82.51 |
| Gürcülər | 7450 | 14.56 | 7447 | 13.98 |
| Saxurlar | 2612 | 5.11 | 1008 | 1.89 |
| Ləzgilər | 609 | 1.19 | 253 | 0.48 |
| Ruslar | 91 | 0.18 | 67 | 0.13 |
| Türklər | 96 | 0.19 | 64 | 0.12 |
| Avarlar | 11 | 0.12 | 9 | 0.12 |
| Tatarlar | 0 | 0.00 | 0 | 0.00 |
| Ukraynalılar | 26 | 0.05 | 5 | 0.01 |
| Digərləri | 899 | 1.76 | 446 | 0.84 |

Göründüyü kimi, prof. A.A.Xələfov özünün çoxillik elmi-nəzəri araşdırmalarından gəldiyi nəticələri müvafiq aspektdə bu cür ümumiləşdirməsi və kitabxanaşünas tədqiqatçılar (xüsusilə, regional kitabxanaşünaslığın tədqiqi ilə məşğul olanlar) qarşısında qoyması xüsusi əhəmiyyət kəsb edir. Bu mənada Şəki-Zaqatala İqtisadi regionunda kitabxana-informasiya infrastrukturunun tədqiq edilməsi zamanı görkəmli alimin yuxarıda qeyd etdiyimiz tutarlı nəzəri müddəalarını əldə rəhbər tutaraq bu regionun qeyd edilən hər üç ümdə elmi müddəalar baxımından spesifik xüsusiyyətlərə malik olduğunu əsaslandıra bilirik.

**Nəticə.** Bu baxımdan, həmçinin, görkəmli kitabxanaşünas alimlərdən prof. X.İsmayılov özünün "Kitabxana menecmentinin əsasları" adlı sanballı monoqrafiyasında qeyd etdiyi nəzəri müddəaları da mühüm əhəmiyyətə malikdir. O, qeyd edir: "Əgər biz kitabxanaşünaslığa ümumölkə, ümumrespublika səviyyəsində vahid bir tam kimi baxsaq, regional kitabxanaşünaslığın bu tamın mərkəzi hissəsində durduğunu aydınca görə bilərik. Buna görə də, regional kitabxanaşünaslığın inkişafı, regionlarda kitabxana-informasiya infrastrukturunun öyrənilməsi, fundamental tədqiqatlara cəlb edilməsi, bu istiqamətdə elmi-tədqiqat işlərinin, dissertasiyaların yazılması günümüzdə ciddi aktuallıq kəsb edir. Eləcə də, regional kitabxanaşünaslığın öyrənilməsi, regionlarda kitabxana-informasiya fəaliyyətinin əsaslarının ümumiləşdirilməsi də müasir kitabxanaşünaslıqda kitabxana menecmentinin əsas vəzifələrindən biri kimi qiymətləndirilir".

Azərbaycan Respublikasının Şəki-Zaqatala İqtisadi regionunda kitabxana-informasiya xidmətinin mürəkkəb polietnik zəmində səciyyəvi xüsusiyyətləri

müasir informasiyaaşdırılmaş cəmiyyətin bərqərar olunduğu Respublikamızda kitabxana-informasiya xidməti prosesində mühüm fərqləndirilmiş əlamətlər kimi nəzərə alınaraq, regionda kitabxana-oxucu, kitabxanaçı-oxucu münasibətlərinin optimal təşkilini şərtləndirməli olan aktual probem kimi nəzərə alınmalıdır.


**Ədəbiyyat:**

1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 20 aprel, 2007// Azərbaycan. 2007. 21 aprel.
2. Əliquliyev R.M. İnformasiya cəmiyyətinin formalaşmasının multidissiplinar elmi-nəzəri problemləri və onların ölkəmizdə araşdırılma vəziyyəti//AMEA-nın Xəbərlər Məcmuəsi. 2014, cild 1, №1. – s. 30-35.
3. Xələfov A.A XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas istiqamətləri: (mulahizələr, tərtiblər və proqnozlar). – B., 2006. – 106 s.
4. İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000-ci illər): Monoqrafiya. – B.: BDU nəşr-tı, 2000. – 416 s.
5. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Azərbaycan. 1999. 14 mart.
6. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – B. 2009. – 88 s.
7. Rzayev S.M. Kitabxana xidməti: Dərslik. – B.: BDU nəşr-tı, 2009. – 337 s.
8. Ismayilov N., Khalafova S. The role of digital marketing in the management of library information resources // ISSN 2074-5354 (print), ISSN 2522-9745 (online). АКАДЕМІЧНИЙ ОГЛЯД. 2022. № 2 (57).pp.194-202.
9. Ismayilov, N.I. Library Resources: Allocation and Usage Problems (Comparative Analysis of the World and Regional Practice) // – Ukraine, Dnipropetrovsk: Scientific and Theoretical Almanac "Grani", – 2022. №1 (26), – p. 38-43.
10. Ismayilov, N.I. Theoretical and practical issues of location of library-information resources //-Baku: Library science and bibliography: scientific-theoretical and practical journal: Mütercim publishing house, 2010. No. 1, – p.67-78.
11. Gasimli, H.H. Bibliographic and analytical analysis of library-information provision of tourism activities in the Republic of Azerbaijan // – Baku: Baku State University, News of Baku University. Humanities series, –2022. No.3, –p.144-149.
12. Mahammadli, D. Local history funds in the library-information system of Sheki-Zagatala economic region of the Republic of Azerbaijan // Library science and bibliography: scientific-theoretical, methodical and experimental journal. 2022. No. 2(51). – Baku: Mutercim, 2022. –136 p. – s. 40-47.
13. Mahammadli, D. The state of promotion of literature on national statehood, national ideology and patriotism in the regional library network of the Republic of Azerbaijan in modern conditions (on the example of Sheki-Zagatala economic region) // Librarianship and bibliography: scientific-theoretical, methodical and experimental journal. 2022. No. 1(50). - Baku: Mutercim, 2022. –140 p. – s. 60-68.


***Rəyçi:** t.e.d., prof.* ***X.İ.İsmayılov***